# AZƏRBAYCAN RESPUBLİKASININ BAKI, GƏNCƏ, NAXÇIVAN ŞƏHƏR ƏHALİSİNİN KİTABXANA-İNFORMASİYA TƏMİNATI SİSTEMİNİN İNFRASTRUKTURU

*Oruc İslam oğlu QULİYEV*
*AMEA-nın dissertantı*

***Библиотечно-информационная инфраструктура массовых библиотек населений городов Баку, Гянджа, Нахчыван Азербайджанской Республики***
***Резюме:*** *в статьеанализируются библиотечно-информационная инфраструктура массовых библиотек в условиях крупные городов Азербайджанской Республики на основе анализа опыта работы массовых библиотек город Баку, город Нахчыване обобичены тестаиё ролы этих библиотек в овищей библиотечныйиинфраструктуре*
***The informative provision systems infrastructure of people in the cities of Azerbaijan Republic, such as Baku, Ganja and Nakhchivan***
***Abstract:****The informative provision system's formation of people in Baku, Ganja and Nakhchivan was analysed and mass library chain's activity about concept was commented in thic article.*

***Açar sözlər:*** *iri şəhərlər, şəhər əhalisi, kitabxana-informasiya sistemi, infrastruktur.*
***Ключевые слова:*** *крупные города, жители города, библиотечных и информационных систем, инфраструктуры.*
***Keywords:*** *big cities, the population of the city, library-information system, the infrastructure*

## Giriş

Kitabxana, biblioqrafik və informasiya təminatının həyata keçirilməsində, eləcə də, biblioqrafik-informasiya mənbələrinin yaradılmasında və yayılmasında, onların informasiya tələbatçılarına çatdırılmasında kitabxanaların fəaliyyəti danılmazdır. Şəhər əhalisinin kitabxana-informasiya təminatı sisteminin təşkili problemlərini araşdırarkən məlum olur ki, bu problemin həllində əhalinin yerləşmə problemi əsasdır. Aparılan araşdırmalara görə 1990-cı ildə Azərbaycan əhalisinin sayı 7.131 milyon nəfər olmuşdur. 5 il ərzində azərbaycanlıların sayı təxminən 500 min nəfər artmışdır. İllik artım faizi 1.2-1.7 arasında dəyişmişdir. 2000-cil də əhalinin sayı 8 milyon nəfəri keçmişdir. Sonrakı illərdə diqqətçəkən məqam əhalinin sayının artmasına rəğmən illər üzrə artım faizinin aşağı düşməsdir. Məsələn, 2001-ildə 77 min, 2002-ci ildə 77.8 min, 2003-cü ildə isə 79.8 min nəfər artmışdır.

2003-cü ildən sonrakı illərdə isə artım nisbətən çoxalmışdır. 2004-cü ildə Azərbaycanda 8.349 min nəfər qeydiyyatda olmuşdur. 2005-ci ildə ötən ilə nisbətən əhalinin sayı 105 min nəfər artmışdır. Bu tendensiya qısa fərqlərlə 2010-

cu ilə qədər davam edib. 2006-ci ildə ölkədə 8.553 milyon, 2007-ci ildə 8.665, 2008-ci ildə 8.779, 2009-cu ildə 8.896, 2010-cu ildə isə təqribən 9 milyon nəfərə çatmışdı. Bu illər ərzində kəndlərdə yaşayan əhalinin azalması tendensiyası davam edərək 55/45 faiz nisbətində olmuşdur.

1 may 2014-cü il tarixli məlumata görə Azərbaycan Pespublikasının əhalisi 9477.1 min nəfər olmuşdur və dünyada 240 ölkə arasında 92-ci yerdədir.

*Əhalinin say tərkibi*

| İllər | 1950 | 1960 | 1970 | 1980 | 1990 | 1995 | 2000 |
|---|---|---|---|---|---|---|---|
| Şəhər əhalisi | 1252.3 | 1835.2 | 2564.6 | 3247.5 | 3847.3 | 4092.6 | 4116.4 |
| %-lə | 43.8 | 48.0 | 50.1 | 53.1 | 53.9 | 52.1 | 51.2 |
| Kənd əhalisi | 1606.6 | 1980.5 | 2552.5 | 2866.8 | 3284.6 | 3366.4 | 3916.4 |
| %-lə | 56.1 | 51.9 | 49.8 | 46.8 | 46.0 | 42.8 | 48.7 |
| Ümumi əhali | 2858.9 | 3815.7 | 5117.1 | 6114.3 | 7131.9 | 7851.3 | 8032.8 |

| İllər | 2001 | 2006 | 2009 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| Şəhər əhalisi | 4149, 1 | 4502, 4 | 4818.7 | 4829, 5 | 4888, 7 | 4966, 2 | 5045, 4 |
| %-lə | 51, 1 | 52, 6 | 54.1 | 53, 0 | 52, 9 | 53, 1 | 53, 2 |
| Kənd əhalisi | 3965, 2 | 4050, 7 | 4078.6 | 4281, 6 | 4346, 4 | 4390, 3 | 4431, 7 |
| %-lə | 48, 9 | 47, 4 | 45.8 | 47, 0 | 47, 1 | 46, 9 | 46, 8 |
| Kişilər | 3972, 0 | 4213, 5 | 4311.3 | 4517, 1 | 4583, 5 | 4648, 8 | 4713, 5 |
| %-lə | 49.0 | 49.3 | 48.4 | 49.6 | 49.6 | 49.7 | 49.7 |
| Qadınlar | 4142, 3 | 4339.6 | 4416.2 | 4594.0 | 4651.6 | 4707.7 | 4763.6 |
| %-lə | 51.0 | 50.7 | 49.6 | 50.4 | 50.4 | 50.3 | 50.3 |
| Ümumi əhali | 8114, 3 | 8553, 1 | 8896.9 | 9111, 1 | 9235, 1 | 9356, 5 | 9477, 1 |

Cədvəldən də göründüyü kimi respublikanın şəhər əhalisi müstəqillik illərində daha da artmış, urbanizasiya kənddən şəhərə doğru artan istiqamətdə dəyişmişdir. 2014-cü ili götürsək respublikanın şəhər əhalisi 53.2%, kənd əhalisiisə 46.8 %-dir. Bu bir tərəfdən Qarabağ müharibəsində Ermənistandan qaçqın düşən əhalinin respublikanın iri şəhərlərində yerləşməsi ilə və bölgələrdə yaşayan əhalinin müxtəlif məqsədlərlə iri şəhərlərə axın etməsi ilə bağlıdır.

Azərbaycanın yaşayış məntəqələrinin yaranması mürəkkəb tarixi dövr



keçmişdir. Hər bir tarixi dövrdə məskunlaşma sisteminin təşəkkülü, yüksəlməsi və tənəzzülü prosesləri baş vermiş və bunun üçün konkret iqtisadi-siyasi zəmin yaranmışdır. Hal-hazırda Azərbaycanın tərkibində 1 Muxtar Respublika-Naxçıvan Muxtar Respublikası (NMR), 90 inzibati-ərazi vahidi, o cümlədən 66 rayon, 11 şəhər və 13 şəhər rayonu vardır.

**Əsas hissə**

Azərbaycan Respublikasının şəhərlərində əhaliyə kitabxana-informasiya xidmətinin təşkilindən danışarkən, onu qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli Sərəcamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inlişafı üzrə Dövlət Proqramı"nın [3]2.1.8-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2009-cu ilin sentyabr ayının 1-dən 10-na kimi "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinə keçirmişdir [15, s.3]

Statistik müayinə əsasında müəyyən olunmuşdur ki, kütləvi, uşaq, gənclər, elmi, elmi-texniki, digər ixtisaslaşmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 2322-si və ya 27, 3 %-i şəhər yerlərində, 6185-i və ya 72, 7 %-i kənd yerlərindədir. Tabeçilik baxımından onların 50, 7 %-i Təhsil Nazirliyinin (48, 0 %-i ümumtəhsil, 2, 7 %-i ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində), 46, 6 %-i Mədəniyyət və Turizm Nazirliyinin (44, 8 %-i kütləvi kitabxanalarda, 1, 8 %-i musuqi məktəblərində) 2, 7%-%i isə digər müəssisələrin nəzdində fəaliyyət göstərir. [15, s.3]

Kitabxanaların 23, 4 %-i Aran, 14, 9 %-i Gəncə-Qazax, 11, 7 %-i Lənkəran, 9 %-i Şəki-Zaqatala, 8, 4 %-i Bakı şəhəri, 8, 2 %-i Quba-Xaçmaz, 7, 1 %-i Yuxarı Qarabağ, 5, 8 %-i Naxçıvan, 4.9 faizi Dağlıq Şirvan, 4, 5 faizi Kəlbəcər-Laçın və 2, 1 faizi Abşeron iqtisadi rayonlarındadır.

Azərbaycan kitabxanaların 111, 0 milyon nüsxədən ibarət olan fondunun 80.5 %-ni kitablar, 5, 4 %-ni qəzet və jurnallar, 14, 1 %-ni isə digər materiallar təşkil edir ki, onların da 72, 8 % şəhər, 27, 2 % isə kənd yerlərində fəaliyyət göstərən kitabxanaların payına düşür. Kitabxana fondunun 34, 6 %-i ümumtəhsil məktəblərində, 32, 0 %-i Mədəniyyət və Turuzm Nazirliyinin nəzdində olan kitabxanalarda, 21, 4 %-i elmi və elmi-texniki kitabxanalarda, 12, 0%-i isə digər müəssisə və təşkilatların kitabxanalarındadır. [15, s.3]

Qeyd olunduğu kimi Azərbaycan Respublikası 5 iqtisadi zonaya bölünür. Onlardan ən böyüyü Böyük Qafqaz təbii-iqtisadi zonasıdır. Böyük Qafqaz ən təzadlı vilayətdir. Daxili fərqlər böyük olduğu üçün aşağıdakı iqtisadi rayonlara bölünür: Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan və Şəki-Zaqatala. . Bakı-Abşeron bölgəsi əsasən Abşeron iqtisadi rayonundan ibarətdir. Bu iqtisadi rayon Abşeron, Xızı inzibati rayonlarını, Bakı və Sumqayıt şəhərlərini əhatə etməklə çox əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. İqtisadi rayonun ümumi sahəsi 5, 9 min. kv.km olmaqla ölkə ərazisinin 7 faizini əhatə edir.

Abşeron iqtisadi zonasının ən iri şəhəri Bakı şəhəridir. Bakı hələ orta əsrlərdən yaxın və Orta Şərqin iri şəhərlərdən biri olmuş, beynəlxalq ticarət yollarının ayırıcında yerləşmişdir.

Bakının ərazisi2200 kv km-dir. Bu gün Azərbaycan paytaxtı, Qafqaz regionunun irisiyasivəiqtisadiмərkəzlərindən biri kimi mühümroloynayır. Bakıözündə11 inzibati rayonu, 5şəhərtipliqəsəbənibirləşdirir. Bakının əhalinin sayı 1 yanvar 2013-cü il məlumatına görə 2150, 8 min nəfər, əhalinin sıxlığı 1 yanvar 2013-cü il 1 km2 1000 nəfərdir.Bakı-Azərbaycan Respublikasının paytaxtı, Qafqaz bölgəsində ən böyük ticarət, mədəniyyət və elm mərkəzi, Xəzər dənizində ən böyük limanşəhəridir.

Şirvanşahlar saray kompleksi, İçəri şəhər və Qız qalası 2000-ci ildə UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilmişdirlər. 2015-ciilinyanvarındaisəBakışəhəri ABŞ-ın "New-YorkTimes" qəzetinin dünyanın ən gəzməli şəhərləri siyahısında 51-ci yeritutmuşdur. Bakı həm də Azərbaycanın elmi, mədəni və sənayə mərkəzidir. Azərbaycanın bir çox iri şirkətlərinin Bakıda baş ofisləri var. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin başlanğıc nöqtəsi Bakıda yerləşir. Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 kilometr, ekvatora qədər olan məsafə isə 4440 kilometrdir[18].

Qeyd olunduğu kimi, Azərbaycan Respublikasında 8507 kitabxana fəaliyyət göstərir. Onlardan 2332-si, yəni, 27, 3 faizi şəhər yerlərində, 6185-i, yəni, 72, 7 faizi kənd yerlərində fəaliyyət göstərir. Abşeron iqtisadi rayonunda yerləşən Bakı şəhərində 11 Mərkəzləşdirilmiş Kitabxana Sistemi və 717 kitabxana fəaliyyət göstərir.

Statistik müayinənin nəticələrinə görə Bakı şəhərində yerləşən 717 kitabxana, Azərbaycan kitabxanalarının 8, 3 %, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların isə 30, 9 %-ni təşkil edir edir. Onlardan 66-sı, 0, 8 %-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2, 8 %-i Binəqədi, 79-u, 0, 9 %-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 3, 4 %-i Əzizbəyov, 57-si, 0, 7 %-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2, 5 %-i Xətai, 43-ü, 0, 5%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 1, 9 %-i Qaradağ, 72-si, 0, 8 %-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 3, 1%-i Nərimanov, 63-ü, 0, 7 %-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2, 7 %-i Nəsimi, 49-u, 0, 6%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2, 1%-i Nizami, 83-ü, 1, 0%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 3, 6%-i Sabunçu, 60-ı, 0, 7%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2, 6%-i Səbail, 46-sı, 0, 5%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 2.0%-i Suraxanı, 99-u, 1, 2%-i, şəhər yerlərində fəaliyyət göstərən kitabxanaların 4, 2%-i Yasamal rayonunda yerləşir.

Azərbaycan Respublikasında peşə-ixtisas təhsi müəssisələrində 107, şəhər yerlərində 96, 89, 7%, cəmi ümumi kitabxanaların 4, 1%-i, kənd yerlərində 11, 10, 3%, cəmi ümumi kitabxanaların 1, 3%, ümumtəhsil müəssisələrində 4081, 48, 0%, musiqi məktəblərində 154, 1, %, səhiyyə müəssisələrində 69, 0, 8%, digər müəssisələrdə 95, 1, 1% kitabxana vardır.



Bakı şəhərinin peşə-ixtisas təhsi müəssisələrində 35 kitabxana, respublika kitabxanalarının 4, 9%-i, ümumtəhsil müəssisələrində 354, 49, 4%-i, musiqi məktəblərində 32, 4, 5%, səhiyyə müəssisələrində 19, 2, 6 %, digər müəssisələrində 71, 9, 9% kitabxana vardır. Azərbaycanda kütləvi kitabxanaların sayı illər üzrə aşağıdakı cədvəldə verilmişdir.

*Cədvəl*

| Göstərici | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Kütləvi kitabxanaların sayı** (*ədəd*) | 4374. | 4152 | 4131 | 4124 | 4090 | 4004 | 4021 | 4033 | 4029 | 3993 | 3947 | 3883 | 3389 | 3320 | 3291 |
| **Kitabxana fondu** (*milyonnüsxə*) | 38.7 | 36.9 | 36.8 | 36.5 | 35.3 | 36.6 | 36.4 | 36.8 | 37.3 | 36.0 | 36.1 | 35.9 | 34.6 | 33.5 | 33.2 |
| **Kitabxana fondu, nusxə** (*hər 1000 nəfərə*) | 4867 | 4603 | 4559 | 4483 | 4287 | 4340 | 4259 | 4250 | 4250 | 4053 | 4012 | 3885 | 3751 | 3580 | 3501 |

Bakının kütləvi kitabxanaların sayı 2005-ci ildə 115, 2008-ci ildə 111, 2009-ci ildə 112, 2010-ci ildə 127, 2011-ci ildə 125, 2012-ci ildə 126 olmuşdur. Onlarda kitab fondu, 2005-ci ildə 10295 min nüsxə, 2006-ci ildə 6 9925 min nüsxə, 2008-ci ildə 1 9881 min nüsxə, 2009-ci ildə 5 10484 min nüsxə, 2010-ci ildə 3 10382 min nüsxə, 2012-ci ildə 3 10211, 3 min nüsxə olmuşdur. Orta hesabla hər 1000 sakinə, 2005-ci ildə 5495 nüsxə, 2008-ci ildə 5113 nüsxə, 2009-ci ildə 4785 nüsxə, 2010-ci ildə 5011 nüsxə, 2011-ci ildə 4892 nüsxə, 2012-ci ildə 4747 nüsxə olmuşdur.

Bakıda iri kitabxanalar - M.F.Axundov adına Milli kitabxana, Respublika Elmi-Texniki Kitabxanası, AMEA Mərkəzi Elmi Kitabxana, C.Cabbarlı adına Gənclər Kitabxanası, F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası, M.Ə.Sabir adına Bakı Şəhər Kitabxanası, Respublika Elmi-Tibb Kitabxanası və başqa kitabxanaların əsası əsrin əvvəllərində qoyulmuşdur.

Azərbaycanın baş kitabxanası olan M.F.Axundov adına Milli Kitabxana nəinki Qafqazda, yerləşdiyimiz Avropa qitəsində, eləcə də bütün dünyada tanınan ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir. Kitabxana 1922-ci ildə yaradılmış, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olmuşdur.

Kitabxana yarananda onun fonduna İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı İctimai Cəmiyyətinin kitabxanalarının fondlarından 5000 nüsxə kitab verilmişdir. 1939-cu ildə kitabxanaya mütəfəkkir, dramaturq və maarifçi Mirzə Fətəli Axundovun adı verilmişdir. Kitabxananın memarlıq baxımından tarixi abidə kimi qiymətləndirilən əzəmətli binaya 1961-ci ildə köçmüşdür. Layihənin memarı isə akademik Mikayıl Useynovdur.

"Kitabxana işi haqqında" və "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən Milli Kitabxana ölkə ərazisində dərc olunan nəşrlərdən pulsuz məcburi nüsxələr alır və onların əsasında Azərbaycan kitabının arxiv fondunu yaradır. Dünyanın 30-dan artıq milli kitabxanası ilə ikitərəfli qarşılıqlı əməkdaşlıq barədə Memorandum imzalamışdır.

Elm və mədəniyyətə yüksək qiymət verən ümummilli lider Heydər Əliyev 4 dəfə (1995-ci il 3 iyun; 1996-cı il 4 mart; 1997-ci il 5, 20 noyabr) Milli Kitabxanaya gəlmiş və öz şəxsi kitabxanasından yüzlərlə kitabı kitabxanaya hədiyyə etmişdir.

2004-ci ildə Kitabxanaya Nazirlər Kabinetinin qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir ki, bu da kitabxananın fəaliyyətinə verilən ən yüksək qiymətdir. Hal-hazırda Milli Kitabxanada 27 şöbə, 47 bölmə fəaliyyət göstərir. Kitabxana fondunda 4560301 çap məhsulu saxlanılır. 2013-cü ildə kitabxanaya 20 039 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Oxucuların sayı 75 526 nəfərə, kitabxanaya gələnlərin sayı isə 155 979 nəfərə çatmışdır. Virtual oxucuların (sayt və elektron kitabxanadan istifadə edənlər) sayı 551 616 nəfər olmuşdur [16].

2005-ci ildən nəşriyyatlardan və poliqrafiya müəssisələrindən alınan məcburi nüsxələr əsasında Milli Kitabxananın "Çap məhsullarının qeydiyyatı və Milli biblioqrafiya şöbəsi" (Kitab palatası) 15 illik fasilədən sonra "Birillik Azərbaycan kitabiyyatı"nın çapını bərpa etmiş, artıq respublikamızda dərc olunmuş kitabları əhatə edən 24 buraxılışı (1990-2014-ci illər) çap edilmişdir.

Milli Kitabxananın nəşriyyat fəaliyyəti də inkişaf etmişdir. 2013-ci il də 40 adda, 6745 nüsxə, 472, 6 çap vərəqi biblioqrafiya, biblioqrafik məlumat kitabı, metodik vəsait, metodik tövsiyələr nəşr edilmişdir. Tanınmış şəxsiyyətlər seriyasından "Elçin (Əfəndiyev Elçin İlyas oğlu): biblioqrafiya", "Tahir Salahov:biblioqrafiya", "Azərbaycan Milli Kitabxanası. Fotoalbom", "Azərbaycan Milli Kitabxanası-90:biblioqrafiya", Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildliyin XXIX-XXXXII cildlərinin köməkçi göstəricisi, "Azərbaycan Milli Kitabxanası-90: məqalələr məcmuəsi", "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında VI cild: Azərbaycan Respublikası şəhər və rayonlarının ümumtəhsil məktəblərinin kitabxanaları", və s. göstəricilər çap olunmuşdur. Çap olunan bütün vəsaitlər respublikanın MKS-nə və Bakı şəhər kitabxanalarına vaxtında və operativ surətdə çatdırılmışdır.

İxtisaslaşdırılmış Xarici ədəbiyyat şöbəsi 2005-ci ildən beynəlxalq kitab mübadiləsini bərpa edərək, bu gün dünyanın 60-a yaxın kitabxanası ilə əlaqə yarada bilmişdir.



Oxuculara xidmətin yüksək səviyyədə olması işin təşkilindən, kitabxanaçıların peşəkarlığından çox asılıdır. Bu məqsədlə xidmət sahələri genişləndirilmiş, istifadəçilərə yeni xidmət növləri təklif edilmişdir. Lokal şəbəkədən istifadə üzrə oxu zalı bölməsində 24 kompyuterlə yanaşı 5 İpad vasitəsilə oxuculara xidmət işinə başlanılmışdır. Bu ildən etibarən oxucu qeydiyyatı, kitab verilişi prosesləri avtomatlaşdırılmışdır.Kitabxananın metodik fəaliyyətində də xeyli işlər görülmüşdür. Kitabxanada 60-70-ci illərdə çap olunan, kitabxanalar tərəfindən böyük rəğbətlə qarşılanan "Əlamətdar və tarixi günlər təqvimi"nin nəşri bərpa olunmuş və 2005-2014-cü illər toplusu çap edilmişdir.

Artıq kitabxananın "Kitabxana siyasəti və metodik rəhbərlik" şöbəsi kitabxanalara virtual rejimdə metodik köməklik göstərməyə başlamışdır. Bu iş forması nəticəsində Milli Kitabxananın hazırladığı materiallar və vəsaitlər, tövsiyələr kitabxananın saytında yerləşdirilir və nəticədə bütün nəşrlər çap olunmamışdan və yerlərə göndərilməmişdən kitabxanaçıların ixtiyarına verilir. Milli Kitabxananın saytında "Metodik xidmət" bölməsi vasitəsilə kitabxanaçıları maraqlandıran suallara dərhal və operativ cavab verilir.

2013-cü ildə Kitab fondlarının mühafizəsi şöbəsinin tərkibində fəaliyyət göstərən Nadir kitablar bölməsi ləğv edilərək may ayının 1-dən Nadir kitablar və kitabxananın muzeyi şöbəsi kimi fəaliyyətə başlamışdır.Milli Kitabxananın 90 illik yubiley tədbirləri çərçivəsində sentyabr ayının 25-də təntənəli açılış mərasimi olmuşdur.

2005-ci ildə Milli Kitabxana Avropa Milli Kitabxanalar Konfransı Beynəlxalq Təşkilatına (CENL) üzvdür. Keçmiş SSRİ ölkələri arasında Rusiyadan sonra bu təşkilata üzv olan ikinci dövlət Azərbaycan oldu. Bu da kitabxananın beynəlxalq əməkdaşlıq üfüqlərinin genişlənməsinə, ümumavropa və ümumdünya layihələrində iştirakına real imkanlar yaradır. Bu təşkilat özündə 48 Avropa ölkəsinin kitabxanalarını birləşdirir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Avropa Milli Kitabxanaları konfransı (CENL), Avrasiya Kitabxanalar Assambleyası (BAE), Avropa Kitabxanası, Türkdilli ölkələrin milli kitabxana direktorları şurasının, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanaları şurasının, Avrasiya Kitabxanaçılar Birliyinın üzvüdür və bu təşkilatlarla sıx əməkdaşlıq edir [16].

Şəhər əhalisinin müəyyən hissəsini uşaqlar təşkil etdiyinə görə ölkədə uşaq kitabxanaları şəbəkəsi formalaşmışdır. Bu sistemdə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının mühüm rolu vardır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası Bakı şəhərinin ən iri kitabxanalarından biridir. Kitabxana 1965-ci il yanvarın 1-də Mədəniyyət Nazirliyinin qərarı ilə M.Qorki adına kitabxananın fondu əsasında yaradılmışdır. 2012-ci il üçün kitabxananın rəqəm göstəriciləri: kitab fondu - 249834, oxucu-17028, gəliş-115600, kitab verilişi -348950. Kitabxananın 8 şöbəsi, 4 bölməsi, 2 oxu zalı var. 3 filialı isə Bakının müxtəlif rayonlarında fəaliyyət göstərir.

Kitabxana uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Firidun bəy Köçərlinin (26.01.1863, Şuşa-1920, Gəncə) adını daşıyır. O, Azərbaycan ədəbiyyatşünası, pedaqoq və publisist Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmışdır. Onun uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabında müəllif ən çox şifahi xalq ədəbiyyatı nümunələrindən istifadə etmişdir.

Kitabxananın 8 şöbəsi, 4 bölməsi və 3 filialı vardır. 1. Komplektləşdirmə və kitabişləmə şöbəsi.2. Kitabsaxlayıcı şöbə.3. Xidmət şöbəsi.4. Məlumat-biblioqrafiya şöbəsi. 5. Elmi-metodika şöbəsi.6. Kütləvi işlər şöbəsi. 7. İncəsənət şöbəsi. 8. Avtomatlaşdırma şöbəsi.

Kitabxananınhttp://www.clb.az/html/about.shtml 1. Kitabişləmə və kataloq bölməsi.2. Abonement bölməsi. 3. Uşaq mütaliəsinə rəhbərlik bölməsi.4. Kitabxanalararası abonement bölməsi və 3 filial fəaliyyət göstərir [19]. 1. Kitabişləmə və kataloq bölməsi.2. Abonement bölməsi. 3. Uşaq mütaliəsinə rəhbərlik bölməsi.4. Kitabxanalararasıabonement bölməsi və 3 filial fəaliyyət göstərir [19].

Gənclərin kitabxana-informasiya təminatında C.Cabbarlı adına Respublika Gənclər kitabxanası mühüm işlər görür. Kitabxana 1928-ci ildən fəaliyyət göstərir. 1976-cı ildən Gənclər Kitabxanası statusunu almışdır. Kitabxananın kitab fondunu ümumilikdə 124528 nüsxə ədəbiyyat təşkil edir. Kitabxana 13183 nəfər oxucuya xidmət göstərir. Kitabxanada kitab verilişini 266304 nüsxə ədəbiyyat təşkil edir. İstifadəçilər kitabxananın veb saytının "Dünya kitabxanaları İnternetdə" linki vasitəsilə dünyanın ən böyük kitabxanalarının veb saytlarına daxil olmaq və onların məlumat bazalarından istifadə etmək imkanına malikdirlər. Saytdan Almaniya Bundestaq Kitabxanasına, Rusiya Dövlət Kitabxanasına, Fransa Milli Kitabxanasına, Amerika Birləşmiş Ştatları Konqress Kitabxanasına və dünya əhəmiyyətli kitabxana saytlarına birbaşa linklər vardır. Yeni kitabların biblioqrafik siyahı və göstəricisi işçi vəziyyətindədir. Elektron kataloqda "Ümummilli lider", "İdman", "Ekologiya", "Neft strategiyası" adlı yeni məlumat bazaları yaradılmışdır. Bu məlumat bazalarında qəzet, jurnal və kitablar öz əksini tapmışdır. İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemində sərlövhə və sərlövhəaltı məlumatlarının Azərbaycan dilinə tərcümə edilmişdir. Kitabxanada Rusiya Federasiyasının LİBNET Milli İnformasiya Kitabxana Mərkəzinin metodiki vasitələrində kitabxana-biblioqrafiyaya aid olan normativ sənədlərdən istifadə edilmişdir. Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin 28 dekabr 2006-cı il tarixində "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının təsdiq edilməsinə" dair Sərəncam imzalamışdır. Bu sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək üçün Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya komitəsi ilə əldə edilmiş razılığa əsasən Azərbaycanda ilk dəfə olaraq 27 fevral 2008-ci ildə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında İctimai Hüquqi İnformasiya Mərkəzi (İHİM) yaradılmışdır.

Kitabxanada 3 internet xətt fəaliyyət göstərir. Kitabxana hər il oxucu marağını nəzərə alaraq müxtəlif qəzet və jurnallara abunə olur. Bu ildə 17 adda qəzet, 6 adda jurnala abunə yazılmışıq. Həmçinin, bu qəzet və jurnallar gündəlik olaraq nəzərdən keçirilir, biblioqrafik məlumatlar İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sisteminə salınır. C.Cabbarlı adına Respublika Gənclər kitabxanasının veb saytı 2009-cu ildə yenidən yeniləşmiş və istifadəçilərin ixtiyarına verilmişdir. Veb sayt hər gün yeni məlumatlarla zənginləşdirilir. "Aktual mövzular", "Gənclər hərəkatı", "Bu ay teatrlarımızda" və s. bu kimi linklər hər bir gənc oxucunun maraq dairəsindən xəbər verir. Böyük bir tarixi keçmişə malik olan Azərbaycanın keçmişi, bu günü, turizm gözəllikləri, 31 Mart Soyqırımı, 20 Yanvar və Xocalı faciəsi və s. bu kimi movzular saytda çox geniş formada işıqlandırılmışdır [19].



Tədqiqata cəlb olunan Gəncə-Qazax iqtisadi rayonunun ərazisinə Qazax, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Samux, Göygöl, Tovuz və Şəmkir inzibati rayonları daxildir. Burada respublika tabeliyində olan Gəncə və Naftalan şəhərləri yerləşir. İqtisadi rayonun əlverişli təbii şəraiti və iqtisadi-coğrafi mövqeyi əhalinin məskunlaşmasında mühüm rol oynamışdır. Əhalinin ümumi sayı 1103, 3 min nəfər olmaqla ölkə əhalisinin 13, 6 %- ni təşkil edir. Gəncədə Azərbaycan Milli Elmlər Akademiyasının Elm Mərkəzi, elmi-tədqiqat müəssisələri fəaliyyətgöstərir. Gəncədə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU), Texnologiya Universiteti, Gəncə Dövlət Universiteti (GDU) ölkə üçün yüksək ixtisaslı kadrlar hazırlanır. Rayonda kütləvi kitabxanalar, muzeylər, teatrlar, xəstəxanalar və digər sosial-mədəni infrastruktur obyektləri mövcuddur.

Gəncənin ərazisi - 0, 11 min kv. km, əhalinin sayı-1 yanvar, 2014-cu il tarixli məlumata görə 324, 700 min nəfər, Əhalinin sıxlığı- 1 yanvar, 2009-cu il tarixli məlumata görə 1 kv. km 2845 nəfər, qəsəbələrin sayı- 1, iri və orta müəssisələrin sayı-68, məktəbəqədər uşaq müəssisələrinin sayı-45, ümumtəhsil məktəblərinin sayı -44, texniki, orta ixtisas və peşə məktəblərinin sayı-10, ali təhsil müəssisələrinin sayı – 4, Xəstəxanalar və tibb müəssisələrinin sayı – 46, mədəniyyət ocaqlarının sayı- 28, Gəncə ilə Bakı arasında olan məsafə - 375 km-dir. Gəncə Azərbaycanın inkişaf etmiş ikinci böyük şəhəridir.

Gəncə-Qazax İqtisadi rayonunda 1265 kitabxana vardır. Respublika üzrə kitabxanalarının 14, 9 %-ni təşkil edir. Onlardan 271-i, 21, 4% şəhər yerlərində, respublika üzrə şəhər yerlərində yerləşən kitabxanaların 11, 7% -i, 994-ü, 78, 6 %-i kənd yerlərində, kənd yerlərində yerləşən kitabxanaların 16, 1% təşkil edir.

Respublikamızın ikinci böyük şəhəri olan Gəncə şəhərində 100 kitabxana fəaliyyət göstərir. Onlardan 25-i Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan kitabxanaların 26, 5 %-ni təşkil edir. Gəncədə elmi müəssisə kitabxanalarının sayı 3-dür. Azərbaycanda mövcud olan 72 elmi müəssisə kitabxanasının 2.9% -ni təşkil edir. Gəncədə ali təhsil müəssisə kitabxanasının sayı 3-dür, respublikada mövcud olan 57 ali məktəb kitabxanasının 2.9%-ni, orta ixtisas təhsili müəssisələrinin kitabxanalarının sayı 4-dür, respublikamızda mövcud olan 60 orta ixtisas təhsili kitabxanasının 3.9%-ni təşkil edir. Gəncədə peşə-ixtisas təhsil müəssisələrində 6 ədəd, Azərbaycanda mövcud olan 107 peşə-ixtisas təhsili

kitabxanasının 5, 9%, 50 ümumtəhsil məktəb kitabxanası, Azərbaycanda mövcud olan 4081 kitabxananın 1.2%, 6 musiqi məktəb kitabxanası Azərbaycan musiqi məktəb kitabxanalarının 3.8%-i, 1 səhiyyə müəssisəsi kitabxanası, Azərbaycanın 69 səhiyyə müəssisəsi kitabxanasının 1.4%-ni, digər kitabxanalar isə 2-dir. Azərbaycanda mövcud olan 95 digər kitabxanaların 2.0%-ni təşkil edir [17].

Tədqiqata cəlb olunan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Məşhur yəhudi tarixçisi İosifFlavi də Naxçıvanı bəşər tarixinin ilk başlanğıc yeri hesab edir. [13 ]

Muxtar Respublika ərazisinin sahəsi 5, 56 min km$^2$-dir. Bu da Azərbaycan Respublikası ərazisinin 6, 4%-ni təşkil edir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür. 4 şəhəri (Naxçıvan ş., Ordubad ş., Culfa ş., Şərur ş.), 9 qəsəbə, 160 kənd inzibati ərazi dairəsi var. Paytaxtı Naxçıvan şəhəridir. Naxçıvan əhalisinin etnik tərkibi tarixən türkdilli tayfaların üstünlüyü, çoxluğu ilə diqqəti cəlb edir. Tədqiqatçıların fikrincə, hələ e. ə. VII əsrdə şimal istiqamətindən Cənubi Qafqaza gəlmiş sak tayfalarıNaxçıvan ərazisində də məskunlaşmışdır. Bu tayfanın türkdilli olması tədqiqatçılar tərəfindən sübut edilmişdir. Sakların bir qolu olan kol tayfasıda (Koltan, Qoxtan) Naxçıvanın Ordubad bölgəsində yaşamışlar [5, s.7].

Muxtar Respublikanın 402, 4 min nəfər əhalisi var (2010, 1 yanvar). Əhali Naxçıvan MR üzrə qeyri-bərabər yerləşmişdir. Ümumi əhalinin 117, 9 min nəfəri, yaxud 29, 31%-i şəhər, 284, 4 min nəfəri, yaxud 70, 69%-i kənd əhalisidir. 202, 1 min nəfəri, yaxud 100%-i qadınlardan, 200, 2 min nəfəri, yaxud 100%-i isə kişilərdən ibarətdir. Əhalinin sıxlığı hər 1 km$^2$ –də 72 nəfərdir (2010, 1 yanvar). Naxçıvan MR-in əhalisi (99, 1%-i) azərbaycanlılardan ibarətdir. Burada həmçinin ruslar, gürcülər, kürdlər və s. xalqların nümayəndələri də yaşayır. Naxçıvan MR Azərbaycan Respublikasının özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik regionlarından biridir.

Qeyd etmək lazımdır ki, regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramında Naxçıvan iqtisadi rayonunun payına düşən 57 tədbirin hamısı uğurla reallaşdırılıb.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə 09 iyun 2005-ci il tarixdə Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında mədəni-maarif müəssisələri arasında kitabxanalar xüsusi əhəmiyyətə malikdir və dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır. Haxçıvan iqtisadi rayonunda 491 kitabxana, respublika



üzrə kitabxanaların 5.8%-i fəaliyyət göstərir. Onlardan 94-ü, 19.1%, respublika üzrə 4.0% şəhər yerlərində, 397-si, 80.9%, respublika üzrə 6.4% kənd yerlərində fəaliyyət göstərir. Muxtar respublikada cəmi 491 kitabxanadan, 234-ü, 47.7%-i Mədəniyyət və Turizm Nazirliyi sistemində, 2-si, 0.4% elmi müəssisələrdə, 3-ü, 0.6% ali təhsil müəssisələrində, 3-ü, 0.6% orta-ixtisas təhsili müəssisələrində, 3-ü, 0.6% ilk reşə ixtisas təhsili müəssisələrində, 217-si, 44.2% ümumtəhsil müəssisələrində, 25-i, 5.1% musiqi məktəblərində, 2-si, 0.4% səhiyyə müəssisələrində, 2-si, 0.4% digər müəssisələrdə fəaliyyət göstərir.

Naxçıvan şəhərində 49 kitabxana fəaliyyət göstərir. Onlardan 10 kitabxana, 20.4% Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxana, 2 kitabxana, 4.1% elmi kitabxanalar, elmi müəssisələrin kitabxanaları, 3, 6.1% ali təhsil müəssisələrin kitabxanaları, 3, 6.1% orta ixtisas təhsil müəssisələrinin kitabxanaları, 21, 42.9% ümumtəhsil məktəblərinin, 6, 12.2% musiqi məktəblərinin, 2, 4.1% səhiyyə müəssisələrinin, 2, 4.1% digər müəssisələrin kitabxanalarıdır. Naxçıvan şəhərində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, Naxçıvan Dövlət Universitetinin Elektron Kitabxanası, şəhər və rayonlarda 8 mərkəzləşmiş kitabxana sistemi və onların tərkibində 224 filial kitabxanalar fəaliyyət göstərir. Hazırda muxtar respublikada 201-i kənd yaşayış məntəqələrində olmaqla 234 kütləvi kitabxana vardır.

**Nəticə**

Aparılan tədqiqatlara əsasən demək olar ki, Azərbaycanın ən iri şəhərlərindən Bakı, Gəncə və Haxçıvan şəhərlərində cəmi 868 kitabxana fəaliyyət göstərir ki, bu da Azərbaycanda fəaliyyət göstərən cəmi 8507 kitabxananın 10.2%-ni təşkil edir.

**İstifadə olunmuş ədəbiyyatın biblioqrafik siyahısı**

1. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"-Bakı: Nurlar, 2009.-184 s.
2. Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər)// Azərbaycan, 2004, 11 fevral.
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. 2008, № 2, s.6-29.
4. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006.338 s.
5. Hacıyev İ. Naxçıvan bölgəsinin etnik tarixinə dair// Elm.-2009.-27 fevral.-s.7
6. Hacıyev İ. Naxçıvanda elmin inkişafı: tarixi ənənələr və müasirlik// "Dövlət və Din".-2010.-№2(16).-s.18-26
7. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə).-H.3.-B., 2010 .- 431s.
8. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 552 s.
9. İsmayılov X.İ, İsmayılov N.İ, Bayramova İ.Z. Azərbaycan Respublikasında

regionların kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşunaslıq və biblioqrafiya : elmi nəzəri, metodiki və təcrübi jurnal.- 2009.- № 1 .- s.99-112
10. İsmayılov X.İ. İsmayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bur.7. Bakı: Mütərcim, 2007, s.318-320.
11. İsmayılov N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal. B.:BUN, 1999, №1, s. 94-100.
12. İsmayılov N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.:BUN, 2010, №1, s. 67-78.
13. İsmayılov R. Şirinov E. Naxçıvan bir məktəbdir.-B.: Nurlan, 2007
14. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal, 1999, №1, s.3-16.
15. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 86 s.
16. http://anl.az/tarix.php
17. https://az.wikipedia.org/wiki/Bak%C4%B1
18. *http://gencekitab.az/)*
19. *http://clb.az)*
20. *http:/ryl.az)*